UOT 94(479.24)

AYSEL ŞAMİLOVA
Sumqayıt Dövlət Universiteti
aysel.yaqubova5@mail.ru

AZƏRBAYCAN RESPUBLİKASINDA GENDER BƏRABƏRLİYİ PROBLEMİNİN HƏLLİNİN İCTİMAİ-SİYASİ FƏALLIĞIN ARTMASINA TƏSİRİ

DOI: https://doi.org/10.36719/2708-065X/103/141-144

Son onilliklərdə gender bərabərliyinin təmin edilməsi və qadın hüquqlarının qorunması üzrə qlobal miqyasda görülmüş işlərin miqyası və bu işlərin şəffaflıq dərəcəsi daha yüksəkdir. Xüsusi olaraq bu istiqamətdə informasiya təminatının artması, təbliğat işlərinin miqyasının gücləndirilməsi görülmüş işlərin səmərəlilik dərəcəsinin daha da artmasına xidmət etmişdir.

Bu gün qadınlarımız dövlətin yaratdığı bütün imkanlardan tam şəkildə istifadə etmək üçün bütün şəraitlə təmin edilmişlər. Sərbəst təhsil almaq, fiziki hazırlıqlarını inkişaf etdirmək, peşəkarlıq səviyyələrini artırmaq və digər imkanlardan yararlanan qadınlarımız cəmiyyət həyatının bütün sahələrində, ictimai-siyasi proseslərdə də fəal iştirak edir, müasir, daha güclü dövlətimizin qurucuları missiyasını yerinə yetirirlər.

Açar sözlər: Azərbaycan qadını, gender bərabərliyi, iştirak, fəallıq, siyasi.

Giriş. Bu gün dünyada artıq vətəndaş cəmiyyəti təşkilatlarında qadınların siyasi fəaliyyətlə məşğul olmalarına və siyasi karyeralarında irəliləməsinə necə kömək edilə bilməsi imkanları ən çox müzakirə olunan social mövzular sırasındadır.

XX əsrin ortalarından başlayaraq bu günədək keçilmiş yolun təhlili bir daha göstərir ki, qadınların siyasi partiyalara və ümumilikdə siyasətə cəlb olunmasının artırılması vacibdir. Ümumiyyətlə, bu gün yəqin ki, belə bir qənaət heç kimdə xüsusi narazılıq doğurmaz ki, qadınların seçkili və ya təyinatlı vəzifələrə namizəd kimi irəli sürülməsi vətəndaş cəmiyyəti təşkilatlarının öz spesifik xüsusiyyətlərinə görə asanlıqla başlaya və dəstəklənə biləcəyi bir prosesdir. Onlar qadınların siyasi partiyalara cəlb edilməsinin artırılmasına, qadınların rəhbərliyə və ya rəhbər vəzifələrə hazırlanmasına və təşviqatına yönəlmiş proqram və təşəbbüslərdən istifadə edə bilərlər. Yaşadığımız dünyada BMT və digər beynəlxalq qurumlar qadınların dövlət idarəçilik strukturlarında, siyasi həyatda və ümumiyyətlə, cəmiyyət həyatının bütün sahələrində fəal iştirakına xüsusi önəm verirlər.

Gender bərabərliyində beynəlxalq təcrübənin bəzi nəticələri. Müxtəlif dövlətlərin idarəçiliyində qadınların yüksək səviyyədə təmsil olunması heç də hər yerdə eyni vəziyyətin mövcud olması demək deyil.

Sosioloji araşdırma nəticələri göstərir ki, qadınlar yaş səviyyəsindən və fəaliyyət növlərindən asılı olmayaraq cəmiyyət həyatının bütün sahələrində istənilən vəzifədə çalışmaq üçün imkan və bacarıq qabiliyyətləri ilə kişilərdən heç bir halda geri qalmırlar [5]. Doğrudur, bu baxımdan bəzi fəaliyyət sahələri, o cümlədən hərbi fəaliyyətlə bağlı peşələr bir qədər müstəsnalıq təşkil edir. Ancaq aparıcı dövlətlərin təcrübəsinin nəzərdən keçirilməsi göstərir ki, illər ötdükcə bu sahədə də müəyyən dəyişiklikləri baş verməsi tam təbii sayılır.

Son illərin təcrübəsi sübut edir ki, qadınların kişilərlə eyni, bərabər səviyyətdə fəaliyyət sahələri arasında cəmiyyətin siyasi həyatlnda, xüsusi olaraq siyasi partiyaların fəaliyyətində iştitak dərəcələrinin artması heç kimi təəccübləndirmir.

Beynəlxalq təcrübə inandırıcı surətdə təsdiq etmişdir ki, vətəndaş cəmiyyəti seçicilərin gender bərabərliyi ideyasına siyasi partiyaların təmsilçilərindən daha müsbət yanaşdığını göstərdi [5].

Belə ki, Avropa və Asiyanın inkişaf etmiş dövlətlərində, o cümlədədn AFR-də, Böyük Britaniyada, Azərbaycanda, habelə Gürcüstanda, Xorvatiyada, Moldovada, Hindistanda, Pakistanda və digərlərində, qadınların siyasi partiyalara liderlik etməsi, dövlət və hökumət başçıları postunda çalışması bu günün yeni reallıqlarıdır.

Ulu öndər Heydər Əliyevin gender bərabərliyi problemlərinin həlli sahəsində xidmətləri. Böyük siyasətçi insan hüquqları çərçivəsində qadın hərəkatının inkişafına da güclü stimul vermişdi. Ölkəmizdə dövlətin qadın siyasətinin əsas prinsiplərinin müəyyən edilməsinin və dövlət səviyyəsinə qaldırılmasının məhz Heydər Əliyevin adı ilə bağlı olması danılmaz bir tarixi faktdır. O, qadınların idarəetmə, qərar qəbuletmə və sosial həyatın bütün sahələrində irəli çəkilməsini vacib bilmişdir. Azərbaycanda qadın hüquqlarının qorunması, təbliğ olunması, onlara yüksək imtiyazların verilməsi, qadınların dövlət siyasətinin həyata keçirilməsində və qanunların qəbul edilməsində iştirakının artırılması Heydər Əliyev siyasətinin ayrılmaz tərkib hissələrindən olmuşdur.

Ulu öndərin qadınlarla bağlı məsələlərin həlli üçün imzaladığı mühüm fərman və sərəncamlar qadın hüquqlarının reallaşması və təminatı istiqamətində irəliyə doğru atılmış tarixi addımlar olmuşdur. Heydər Əliyev hər zaman vurğulayırdı ki, dövlət quruculuğunun bütün mərhələlərində xüsusi xidmətləri olan Azərbaycan qadınları ölkəmizdə ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, milli dövlətçiliyimizin daha da möhkəmləndirilməsi üçün bu gün də var qüvvələrini sərf edirlər. Azərbaycanda lider qadınlar, sahibkar qadınlar çox olmuşdur. İqtisadiyyatda, siyasətdə, elmdə, təhsildə, bir sözlə, bunu hər sahədə görmək olar.

Hökumətdə, nazirliklərdə, Milli Məclisdə qadınlarımızın fəallığı artmaqda davam edir. Bu kimi müsbət nəticələrin əldə olunmasında Heydər Əliyevin hakimiyyətdə olduğu illərdə qadın hüquqlarının qorunması üçün bir çox qanunlar qəbul etməsi, fərman və sərəncamlar imzalaması, beynəlxalq təşkilatlara üzv olaraq mühüm sənədlərin ölkəmizdə tətbiq olmasını reallaşdırmasındakı rolu danılmazdır. Azərbaycan qadınları cəmiyyətin dinamik inkişafı istiqamətində həyata keçirilən irimiqyaslı layihələrdə öz fəallığı ilə seçilirlər [2].

Respublikada gender bərabərliyinin təmin olunması üçün həyata keçirirlmiş səmərəli faəliyyətin daha da gücləndirirlməsində dövlət xətti ilə təşkil edilən rəsmi strukturların xüsusi rolu olmuşdur. Bu istiqamətdə fəaliyyətin daha da intensivləşməsində Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 14 yanvar tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılmasını ayrıca qeyd etməliyik [6].

Qeyd edilməlidir ki, Qadın Problemləri Komitəsi bəhs edilən sahədə mövcud problemlərin həlli istiqamətində ardıcıl olaraq məqsədyönlü fəaliyyət göstərməyə nail olmuşdur. Lakin dəyişən şərait, cəmiyyətitimizin bütün fəaliyyət sahələrində intensiv inkişafla əlaqədar digər sahələrlə eyni vaxtda, ailə və uşaq problemlərinin qadın problemləri ilə birlikdə kompleks şəkildə həll edilməsi zərurəti bu sahələrdə vahid dövlət orqanının yaradılmasını zəruri etmiş oldu.

Gender bərabərliyi problemlərinin diqqətin daha da artması. Beləliklə, məhz yenilənmiş şəraitin tələblərinin nəzərə alınmasının nəticəsində, Azərbaycan Respublikası Prezidentinin 6 fevral 2006-cı il Fərmanı ilə Respublika Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradıldı [6].

Azərbaycan Respublikası Prezidentinin 9 avqust 2006-cı il tarixli Fərmanı ilə Dövlət Komitəsi haqqında Əsasnamə, komitənin strukturu müəyyən edilmişdir [6].

Dövlət Komitəsi ailə, qadın və uşaq problemləri ilə iş sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

Bildirməliyik ki, bu gün qadınların partiyaya cəlb edilməsi və onların partiya sıralarında dəstəklənməsi sahəsində qabaqcıl təcrübələr fəal iştirak edən qadınların sayının artırılması üçün son dərəcə əhəmiyyətlidir [4, p.48]. Qadın partiya üzvləri qadınlar üçün vacib olan məsələləri müəyyən etmək və təbliğ etmək və onların təsirini gücləndirmək üçün birləşə bilərlər.

2015-ci ildə parlamentlərdə qadınların orta çəkisi 22,5%-ə çatmışdır (müvafiq olaraq 1995-ci ildəki 11,3% ilə müqayisədə). ATƏT regionunda parlamentlərdə qadınların orta nisbəti 25,7% təşkil edir, lakin bu, iştirakçı dövlətlər arasında əhəmiyyətli dərəcədə dəyişir, 50%-dən təqribən qədərdir. Azərbaycanda 2023-cü ilin əvvəlinə qadınlar ölkə əhalisinin 50,2 faizini təşkil etmişdir. Respublikanın ümumi təhsil müəssisələrində çalışan müəllimlərin 81,9 faizi, orta ixtisas təhsili müəssisələrində 81,3 faizi, ali təhsil müəssisələrində 57,4 faizi, həkimlərin üçdə ikisi qadınlardır [3].

Elmin inkişafında qadınların xüsusi rolu var. Elmi işçilərin 59,2 faizini qadınlar təşkil edir. Azərbaycan qadınları ölkənin sosial-iqtisadi həyatında fəal iştirak edir, onların məşğul əhalinin ümumi tərkibində xüsusi çəkisi ilkin məlumatlara görə 48,3 faiz təşkil edir. Dövlət qulluqçuları arasında qadınların xüsusi çəkisi 28%, özəl sahibkarlar arasında isə 22% təşkil etmişdir [3].

Prezident İlham Əliyevin dövründə qadın problemlərinin həlli sahəsində görülmüş mühüm işlər. Qeyd etməliyik ki, respublikamızda son 20 ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə qadın problemlərinin həlli sahəsində 1993-cü ildən bəri görülmüş işlərin davamı olaraq ali dövlət idarəçilik strukturları tərəfindən gender bərabərliyinin təmin edilməsi üzrə aparılan işlər yeni yüksəliş mərhələsinə qədəm qoymuşdur. Dövlətimizin qadınlarla bağlı yürütdüyü siyasətin praktik nəticələri resspublikamızın adının bu sahədə öncül dövlətlər sırasında ilk yerlərdən birində olmasına gətirib çıxarmışdır.

Respublikamızın 2020-ci il Zəfər müharibəsinə qədər erməni işğalının ağır nəticələrini aradan qaldırılması ilə məşğul olmasına baxmayaraq elə bir il olmamışdır ki, qadın problemlərinin həlli məsələləri daim dövlət qayğısı ilə əhatə olunmasın. Bu inkar edilməz həqiqətdir ki, son illərdə qəbul edilmiş gender bərabərliyi üzrə layihə və proqramlar ardıcıl surətdə həyata keçirilmişdir.

İftixar hissi ilə demək olar ki, dövlətimiz və xalqımız İlham Əliyevin rəhbərliyi ilə yeni siyasi və iqtisadi sistem qurmuş, sürətlə inkişaf edərək bölgənin lider dövlətinə çevrilmiş, nəticədə Azərbaycan gender siyasətinin reallaşdırılması məsələsində də yeniliklərə imza atmışdır.

Bu illərdə həmçinin, hüquqi bazanın təkmilləşdirilməsi və bərabər hüquqların təmin edilməsi üçün "Gender bərabərliyinin təminatları haqqında" (2006-cı il), "Məişət zorakılığının qarşısının alınması haqqında" (2010-cu il) Azərbaycan Respublikası qanunları da qəbul olunmuşdur. Qeyd etmək lazımdır ki, bu qanunların qəbulu insanların təfəkküründə yeni düşüncə tərzinin formalaşmasına səbəb oldu. Bütün bunlar həm də, bir çox stereotiplərin qırılmasına da səbəb olmuşdur [1].

Bu gün Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva öz geniş fəaliyyəti ilə beynəlxalq aləmdə Azərbaycan qadının nüfuzunu daha da yüksəklərə qaldırır. Fəxrlə deyə bilərik ki, onun simasında dünya dövlətlərinə dərin bilik və intellekt sahibi olan gözəl ziyalı, peşəkar siyasətçi, humanist Azərbaycan qadını obrazı təqdim olunur.

Heydər Əliyev Fondu Azərbaycanın tərəqqisi və xalqımızın rifahı naminə Ümumilli Lider Heydər Əliyevin zəngin irsindən bəhrələnərək bu işə xidmət edən genişmiqyaslı proqram və layihələrin reallaşmasını və digər mühüm işlərin icrasını təmin edir. Fondun fəaliyyəti Azərbaycan xalqının öz böyük siyasətçisi Heydər Əliyevin xatirəsinə ehtiramını ifadə etmək arzusu və istəyinin nəticəsidir, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək zərurətidir. Ümummilli Liderin zəngin irsinin daha dərindən və hərtərəfli öyrənilməsi, onun yaratdığı milli dövlətçilik və Azərbaycançılıq ideyaları və ölkə mədəniyyətinin geniş təbliği Heydər Əliyev siyasətinə verilən önəmin göstəricisidir [1].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev18 oktyabr 2023-cü ildə keçirilmiş Azərbaycan qadınlarının VI qurultayına ünvanladığı təbrikdə demişdir ki, "qloballaşmanın vüsət aldığı və milli özünəməxsusluğu sürəkli dəyişikliklərə məruz qoyduğu bir vaxtda mədəni-mənəvi dəyərlərimizin qorunub saxlanılmasında və yaşadılmasında Azərbaycan qadınlarının xidmətləri misilsizdir. Hər bir nailiyyətimizdə qadınların böyük zəhməti vardır. Fədakar analarımızın Vətən sevgisinin bariz nümunəsi dövlətimizin suverenliyi və ərazi bütövlüyünün bərpası naminə döyüş meydanındakı unudulmaz rəşadəti ilə xalqımızın mübarizlik ruhunu nümayiş etdirən milli əqidəli gənc nəsildir" [1].

Nəticə. Beləliklə, apardığımız təhlillər göstərdi ki, qadınların siyasi partiyalara və ümumilikdə siyasətə cəlb olunmasının artırılması vacibdir.

Qeyd etmək lazımdır ki, son onillilərdə gender bərabərliyinin təmin edilməsi və qadın hüquqlarının qorunması üzrə qlobal miqyasda görülmüş işlərin nəticələri və bu işlərin şəffaflıq dərəcəsi daha yüksəkdir. Xüsusi olaraq bu istiqamətdə informasiya təminatının artması, təbliğat işlərinin miqyasının gücləndirilməsi görülmüş işlərin səmərəlilik dərəcəsinin daha da artmasına xidmət etmişdir.

Belə bir qənaətimiz maraqlıdır ki, Avropanın aparıcı dövlətlərində, o cümlədən Azərbaycanda, gender bərabərliyi probleminin həlli istiqamətində fəaliyyətin BMT və müxtəlif strukturları ilə koordinasiyası ilbəil genişlənməkdədir.

ƏDƏBİYYAT

1. Azərbaycan qadınlarının VI qurultayının iştirakçılarına // https://president.az/az/articles/view/61755 [16.11.2023].
2. Heydər Əliyev və dövlət qadın siyasəti // http://scfwca.gov.az/post/1123/heyder-eliyev-ve-dovlet-qadin-siyaseti-muasir-dovlet-qadin-siyasetinin-banisi [16.11.2023].

3. Азербайджанские женщины участвуют в социально-экономической жизни страны // https://www.trend.az/azerbaijan/society/3204145.html [16.11.2023].
4. Алиева Сафура. Хасанова Инжи. Гендерное равенство на руководящих должностях в правительстве Азербайджана // İnternational journal of civil service reform and practice vol. 6, no. 1 march. Nur-Sultan, Kazakhstan. 2021. p.46-54.
5. Исполнительный совет Структуры Организации Объединенных Наций по вопросам гендерного равенства и расширения прав и возможностей женщин // https://www.unwomen.org/sites/default/files/Headquarters/Attachments/Sections/Executive%20Board/2015/AS%2015/UNW-2015-4-Add1-ru.pdf [16.11.2023].
6. История создания комитета и основные направления деятельности // http://www.scfwca.gov.az/ru/page/about-the-sommittee [16.11.2023].

АЙСЕЛЬ ШАМИЛОВА
Сумгаитский государственный университет

ВЛИЯНИЕ РЕШЕНИЯ ПРОБЛЕМЫ ГЕНДЕРНОГО РАВЕНСТВА НА ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКОЙ АКТИВНОСТИ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

В последние десятилетия масштабы проводимой в мире работы по обеспечению гендерного равенства и защиты прав женщин, а также степень прозрачности этих работ выше. В частности, увеличение информационного обеспечения в этом направлении, усиление масштабов пропагандистской работы послужило дальнейшему повышению степени эффективности проводимой работы.

В настоящее время нашим женщинам созданы все условия для того, чтобы в полной мере использовать все возможности, созданные государством. Женщины, пользуясь бесплатным образованием, развивают свою физическую подготовку, повышают свой профессиональный уровень и активно участвуют во всех сферах жизни общества, социальных и политических процессах, являются основателями нашего современного, государства.

Ключевые слова: Азербайджанская женщина, гендерное равенство, участие, активизм, политическая.

AYSEL SHAMİLOVA
Sumgait State University

IMPACT OF THE SOLUTION OF THE PROBLEM OF GENDER EQUALITY IN THE REPUBLIC OF AZERBAIJAN ON THE INCREASE OF SOCIAL AND POLITICAL ACTIVITY

In recent decades, the scale and transparency of the work being done globally to promote gender equality and women's rights has increased. In particular, an increase in information support in this direction and an increase in the scale of propaganda work served to further increase the efficiency of the work being carried out.

Currently, all conditions have been created for our women to make full use of all the opportunities created by the state. Our women, taking advantage of free education, develop their physical fitness, improve their professional level and other opportunities, actively participate in all spheres of society, social and political processes, and are the founders of our modern, stronger state.

Keywords: Azerbaijani woman, gender equality, participation, activism, political.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 16 noyabr 2023-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 dekabr 2023-cü il.
Rəyçilər: t.e.d. Fazil Baxşəliyev, t.e.d. Sevinc Yusizfadə.